# Onu “liliput” hesab edirdilər... O isə nəhəng idi

## Lionel Messinin “Barselona” tarixi necə başladı?

***Əsrin əvvəllərində “Barselona”nın “Kadet B” komandasının oyunçuları bir dəfə də olsun “Espanyol”un “Kadet A” komandasına qalib gələ bilməmişdilər. Daha canlı və inkişaf etmiş bu rəqiblərlə qarşılaşmada göy-zoğalı zolaqlıların fiziki gücü və təcrübəsi heç vaxt kifayət etmirdi. Messi meydanda görünən gündən bütün bunlar dəyişdi.***



2002-ci ildə bu balaca argentinalının cəmi 14 yaşı vardı. “Biz onların meydanına gəldik və qapılarına üç top vurduq”, – deyə Belçikanın “Eypen” klubunun müdafiəçisi və “Kadet B”nin həmin dövrdəki heyətinin kapitanı Mark Valiente xatırlayır.

Əslən Rosariodan olan Messi “Barsa”ya iki il tez gəldi və 12 yaşlı yeniyetmələr komandasına yazıldı. Başqa bir müdafiəçi Robert Françın dediyinə görə, Messi “özünü heç kimə təqdim etmədən” heyətə qatıldı.

“Barselona”nın gənclərinə yeni qoşulanlardan həmişə soruşurlar: “Sən hansı mövqedə oynayırsan?” 2002-ci ilin fevralında Rudolf Borrelli Messidən də bunu öyrənmək istədi. Leo başını qaldırmadan sakitcə cavab verdi: “Mən hücumçuyam”.

“O, məni heyrətə saldı”, – deyə Messi ilə bir gündə “Barselona”da peyda olan Poxer Hiribet həmin günləri yada salır. “Çox yaxşı xatırlayıram ki, mən kluba öz fiziki göstəricilərimə görə düşmüşdüm. 12 yaşında mənim boyum 1,7 metr olanda, onun boyu metryarımı keçmirdi”. Borrellinin komandaya izah etdiyi kimi, Messi “uzaqdan” 10 nömrə idi. Valiente deyir ki, o zaman La Masiyaya uzaq ölkələrdən heç kim gəlmirdi. Ancaq Messi istisna idi. Hələ topa düz-əməlli toxunmağa macal tapmamış, hamının diqqətini özünə çəkdi və anlatdı ki, o, başqalarına bənzəmir.

Leoya meydanda özünün “xüsusi” olduğunu sübut etməyə, elə də çox vaxt lazım gəlmədi. Həmin dövrdə onu, əsas ulduzlardan biri hesab edilən Sesk Fabreqasla hucuma buraxdılar. “Seskdə istedad var idi. O ustalıqla oyunu “oxuyurdu”. “Kvadratlarda” heç vaxt düzgün mövqe tutmurdu, amma həmişə başqalarından topu almaqda fəndgir olduğunu göstərirdi”.

Amma o zaman hamını heyran edən Fabreqas deyildi. Messi həqiqətən tam fərqli bir oyunçu idi. “Bizi həmişə topa bir- iki toxunuşla oynamağı öyrədirdilər. Ən gənc vaxtlardan topa nəzarətə və ötürmələrlə oynamağa öyrəşmişdik ki, top sürətlə hərəkət etsin. Elə bu zaman dörd-beş ötürmə ilə topu özündə saxlamağı bacaran balaca bir oğlan peyda oldu və bunu ustalıqla, bizim ötürməyə sərf etdiyimiz vaxtda etdi”.

Ancaq məşq heç də əsl oyun deyildi. Messiyə özünü oyunda göstərmək lazım idi. İki onillikdən artıq kanteranın əfsanəvi rəhbəri olan Albert Benayqasa tələsmək lazım idi. Çünki, əgər Messi yaxın iki matçda oynamasaydı, o zaman 18 yaşlılarla oynamaq imkanını itirəcəkdi.

İlk oyun 2001-ci il martın 7-də “Ampost”a qarşı oldu. Əlbəttə, Messi öz qolunu vurdu. Ancaq şöhrətin bu debütü qonaq meydandakı görüşdə onun ayaq sümüyünün zədələnməsindən sonra başa çata bilərdi. İndiyə qədər bu, argentinalının yeganə belə zədəsidir. Ancaq o zaman “Barselona”da bunu heç ağıllarına belə gətirə bilməzdilər. Klubda oyunçunun təkcə bəstəboy yox, həm də çox çəlimsiz olmasından narahat idilər. Bununla da hər şey bitdi – “İnfantil B” komandasının qapısı onun üzünə bağlandı.

Leo zədəsini sağaltdıqdan sonra “İnfantil A” klubunda oynamağa başladı. Onun oyununda zədə aldığını göstərən adi bir hal belə müşahidə edilmirdi. Ancaq onu çox da sürətlə oynamağa qoymurdular. Borrell və Benayqas 2002-ci ildə Leonu dərhal “Kadet B”nin 16 yaşlılar qrupuna qaytardılar. Məhz burada, sözün əsl mənasında, o, diqqəti özünə çəkdi.



“Buna qədər soyunub-geyinmə otağında ona heç kim diqqət yetirmirdi. Biz səs-küylü, mehriban komanda idik, o isə öz küncündən çıxmayan sakit, çəlimsiz uşaq”, – deyə, Robertin qardaşı Roxer Franç xatirələrini danışır.

Amma yaşıl ot örtüyünün üzərində hər şey başqa cür idi. “O, bizi hövsələdən çıxarırdı-ona qarşı oynamaq heç mümkün deyildi”.

Robert Franç daha sonra əlavə edir: “Biz başa düşürdük, o, bizdən çox yaxşı oynayır və istəyirdik ki, bir-iki itələmə ilə ona cavab verək, görək nə baş verəcək. Ancaq onun heç eyninə deyildi. O, elə sürətli idi ki, biz ona çata bilmirdik”.

Robert nə qədər onu sıxışdırmağa cəhd etsə də hər şey boşa çıxırdı: “Ha cəhd edirsən ki, ona çatıb bir fəndlə yerə yıxasan, o dərhal yoxa çıxır və artıq başqa müdafiəçiylə üz-üzə gəlirdi. O, əsl maşın idi”.

Robert və digər oyunçular onunla təkbətək oynamaqdan qaçırdılar. “Biz bilirdik ki, topa heç toxuna bilmərik”.

“Kadet B”-nin qolkiperi, hazırda “Kartaxena” klubunda çıxış edən Pau Torres də gözlərinə inana bilmirdi: “O, sakit-sakit məşq edirdi, ancaq sonra heyrətdən ağzımız açıq qalırdı. Onun üçün bu sehrbazlıq bir norma idi”.

“Bəzən adama elə gəlirdi ki, onu saxlamağın yeganə çarəsi – tapançanı götürüb atəş açmaqdır. Yəqin yenə bir şey alınmayacaqdı, çünki o topu ayağından qaçırmadan gülլədən də yayınardı”. 13 yaşlı oğlan haqqında bu, hər şeyi ifadə edir.



Messi topla olanda çox ifadəli idi, ancaq qalan vaxtlarda sakitcə dururdu. Yalnız uşaqlar Venesiyaya hansısa turnirdə iştirak etməyə yollananda, o, yavaş-yavaş özünü büruzə verməyə başladı. “Leo zarafat etməyə başladı. O, elə utancaq idi ki, biz, demək olar, onun səsini eşidə bilmirdik”, deyə Valiente xatırlayır. Ancaq bir şey köməyə gəldi ki, Messi La Masiyanın daha bir istedadı və Argentinanın gənclərdən ibarət yığma komandasında onun əsas partnyoru Viktor Vaskeslə dostluq etməyə başladı.Onlar hətta bir məktəbdə oxumuşdular. Məhz Venesiyada Messi “enona” – “liliput” ləqəbi aldı.

Roxer Hiribet xatırlayır: “Biz yalnız səfərdən sonra, aramızda müəyyən anlaşma olandan sonra onu belə çağırmağa başladıq. Bu, həmişəlik belə də qaldı:hətta Messi əsas heyətdə debüt etməyə başlayandan sonra La Masiyaya bizə baş çəkməyə gələndə də dərhal “Liliput, sən özündən böyük uşaqlarla necə yola gedirsən? soruşur və hamılıqla gülürdük”.

“Ola bilsin, biz onu qıcıqlandırırdıq, ancaq o, bunu büruzə vermirdi. Onunla işləmək həmişə xoş idi. Mənə elə gəlir ki, biz sabah da onunla görüşsəydik, yenə də sanki heç 15 il keçməyibmiş kimi, sadəcə bir-birimizi qucaqlayardıq ”.

1987-ci il yaş qrupu 2002-2003-cü illər mövsümündə “Kadet A” kateqoriyasına keçdi. Bu uşaqlar La Masiyanın, ola bilsin, ən yaxşı məzunları kimi şöhrət tapdılar. Onlar Tito Vilanova və Aleks Qarsiya ilə işlədilər. Ancaq onları uzun müddət bir yerdə saxlamaq mümkün olmadı. Sesk “Arsenal”a, Jerar Pike “Mançester Yunayted”ə yollandı.

Messi isə komandaları müntəzəm dəyişərək , yoluna davam edirdi. Əvvəlcə 19 yaşlıların, sonra “Barselona C” nin (daha mövcud deyil), sonra isə “Barselona B”nin heyətində. 16 yaşında Leo ilk dəfə peşəkarların heyətində debüt etdi, 17 yaşında isə, həmin dövrün ən yaxşı futbolçusu olan Ronaldinyo ilə birlikdə əsas heyətin tamhüquqlu oyunçusu oldu.

Hazırda “Balaqer”in texniki katibi olan Hiribet xatırlayır: “Onu tanıyanların və bir yerdə oynayanların hamısı onun texnikasına və istənilən şəraitə uyğunlaşıb oynamaq bacarığına təəccüb etmirdilər. On il əvvəl Messi topu itirmədən sürət yığa bilirdi, ancaq illər keçəndən sonra o, dəyişməyə və başqa keyfiyyətlərinə üstünlük verməyə başladı. Məsələn, hücumu başa çatdırmaq və ya məhsuldar ötürmə vermək keyfiyyətlərinə”.

“Öz karyerasının hər mərhələsində hansı istedadının kollektivə səmərə gətirəcəyinə qərar verir və bunun sayəsində də on ildir ki, bu peşənin ən yaxşısı kimi qalmaqdadır. Gənc yaşlarından bu günə qədər o həmişə yaxşı olmuşdur”.

Hiribet bir şeyi də əminliklə bildirir ki, Messini başqalarından fərqləndirən təzyiqlərin ona heç vaxt təsir göstərməməsidir: “O, “təzyiq” sözü bilmir. Çox istedadlar olub ki, təzyiqlərə tab gətirməyi bacarmadıqları üçün heç nəyə nail ola bilməmişlər. Mən 1500 tamaşaçı qarşısında çıxış edəndə də ayaqlarım əsirdi. O isə Çempionlar Liqasının finalında da öz həyətindəki çəmənlikdə oynadığı kimi təmkinlə oynayırdı”.

Valiente etiraf edir: “Bizim heç birimiz onun tez bir zamanda əsas heyətə düşdüyünə təəccüblənmədik. Təəccübləndirən yalnız odur ki, o, karyerasının hər yeni mərhələsində dəyişir”.

“O, həmişə qarşısıalınmaz olub. Ona qarşı “zərdab” hələ ki, mövcud deyil”, – deyə Torres əlavə edir.

Artıq 15 il keçib və bütün Avropa bu sözlərin həqiqət olduğunu bilir. O zaman da ələkeçməz idi, indi də ələkeçməzdir. O, “Barselona”nın tarixini dəyişdi, ancaq Messi haqqında əfsanə hələ başa çatmayıb.

**İgnasi Oliva Gispert, “Goal”**

***Tərcümə etdi: İlqar RÜSTƏMOV, “Xalq qəzeti”***